**Torpaq mübahisələrinin həllində ekspertizanın keçirilməsi məsələsinə dair**

**İcmal**

*Mövcud vəziyyət barədə ümumi məlumat*

1. Məhkəmələr tərəfindən mülki, kommersiya və inzibati işlərə baxılarkən torpaq sahələrinin sərhədlərinin, kateqoriyasının, koordinatlarının, naturada mövcudluğunun, üst-üstə düşüb-düşməməsinin, zəbt olunub-olunmamasının, hüquqi statusunun, payçılar arasında bölünüb-bölünməməsinin və digər oxşar halların müəyyən edilməsi zərurəti yaranır.

2. Məhkəmə təcrübəsinin, o cümlədən müvafiq icra hakimiyyəti orqanlarından daxil olan məlumatların təhlili göstərir ki, bu qəbildən olan məsələlərin araşdırılması zamanı əksər hallarda ekspertizalar təyin edilir və ekspertlər qarşısında qoyulmuş sualların cavablandırılması üçün torpaq sahələrinə dair elektron baza məlumatlarından istifadəyə ehtiyac yaranır.

3. Lakin ekspertiza aparan qurumların torpaqların elektron kadastr uçotu informasiya sisteminə inteqrasiyası hazırda tam təmin edilmədiyindən, ekspertlər sualları cavablandırmaq üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (və ya Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinə - bundan sonra DƏDKR) torpaq sahələrinin koordinatları, kateqoriyası və elektron bazada mövcud olan digər məlumatların əldə edilməsi ilə bağlı vəsatətlər verməli olurlar. Məhkəmə işlərində bu qəbildən məlumatlar DƏDKR tərəfindən “mütəxəssis rəyi” adı altında təqdim edilir.

4. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin torpaqların elektron kadastr uçotu informasiya sisteminə tam çıxış imkanı olmadığından, həmin “mütəxəssis rəy”lərində əks olunan məlumatların dürüstlüyünü yoxlamaq və müstəqil tədqiqat aparmaq imkanları məhduddur. Nəticədə ekspert rəyləri DƏDKR tərəfindən verilmiş “mütəxəssis rəyi”ndəki məlumatların təkrarı xarakterini daşıyır.

5. Bu isə təcrübədə “formal ekspertiza”nın aparılmasına gətirib çıxarır ki, belə ekspertizalar həm tərəflər üçün əlavə məhkəmə xərclərinin yaranmasına, həm də məhkəmə icraatının qanunvericiliklə müəyyənləşdirilmiş prosessual və ya ağlabatan müddətlər daxilində yekunlaşdırılmasına mane olur.

6. Digər tərəfdən, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi”nin 4.0.7-ci bəndinə əsasən, Xidmət öz vəzifələrini yerinə yetirmək üçün fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq hüquqlarına malikdir. Həmçinin, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin Nizamnaməsi”nin 3.1.38-ci bəndinə əsasən, məhkəmələr tərəfindən təyin edilən ekspertizanın aparılması ilə bağlı ödənişli əsaslarla daşınmaz əmlakın yerində müayinə olunması və mütəxəssis rəyinin verilməsi qurumun vəzifəsi kimi müəyyən edilmişdir. “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinə görə, dövlət torpaq kadastrının məlumatları dövlət orqanlarının, bələdiyyələrin və məhkəmələrin qərar qəbul etməsi üçün əsas hesab olunur.

7. Yuxarıda göstərilən normativ aktların məzmunundan belə nəticə hasil olur ki, DƏDKR tərəfindən torpaq sahələrinə dair rəy verilməsi həmin qurumun birbaşa xidməti vəzifələrindən biridir. Belə ki, torpaq sahələrinin kateqoriyası, sərhədləri, koordinatları və digər kadastr göstəriciləri barədə məlumatlar yalnız bu qurumun ixtiyarında və idarəçiliyində olan elektron

kadastr uçotu informasiya sistemində toplanır və saxlanılır. Həmin məlumat bazasına çıxış bir çox hallarda yalnız DƏDKR-ə məxsusdur. Buna görə, bu qurum tərəfindən təqdim edilən rəy dövlət kadastr məlumatlarına əsaslanan yeganə rəsmi mənbə sayılır. Hazırkı halda digər şəxslər və qurumlar həmişə bu məlumatlara birbaşa çıxış imkanına malik olmadığından bu məlumatlar əsasında verilmiş rəy obyektiv və ilkin mənbədən alınmış yeganə məlumatdır. Belə rəyin mötəbərliyi və obyektivliyi onun mənbəsinin qanunla səlahiyyət verilmiş dövlət orqanı olması və rəsmi kadastr məlumatlarına əsaslanması ilə təmin olunur.

8. Bununla əlaqədar, torpaq mübahisələrinin həlli zamanı yaranan halların araşdırılması istiqamətində aşağıdakıların nəzərə alınması məhkəmələrə tövsiyə edilir.

*Mülki və kommersiya işlərinə baxılması zamanı nəzərə alınmalı olan hallar*

9. Yuxarıda qeyd edilənlərə əsasən məhkəmələrə tövsiyə edilir ki, torpaq mübahisələri ilə bağlı işlərə baxılan zaman müvafiq ekspertiza təyin etmədən, MPM-in 60-cı maddəsində təsbit edilmiş hüquqi imkandan istifadə edilməklə, həmin Məcəllənin 76.1 və 76.2-ci maddələrində nəzərdə tutulmuş müstəqil yazılı sübutlar qismində DƏDKR tərəfindən verilmiş rəylər əsasında qərarlar qəbul edilməlidir. Belə yanaşma prosessual qənaət prinsipinə xidmət etməklə, həm də qərarların daha obyektiv və dəqiq məlumatlar əsasında qəbul olunmasına şərait yaradır. Lakin, burada xüsusilə vurğulanmalıdır ki, həmin rəylərin əldə edilməsi zamanı məhkəmələr DƏDKR-nə işin həlli üçün zəruri olan məlumatların tam və dürüst təqdim edilməsinə imkan verəcək formada sualları formalaşdırmalı, eyni zamanda, orqan da mötəbərliyi şübhə doğurmayan, dolğun və hərtərəfli məlumat təqdim etməlidir.

10. Həmin rəylərin qiymətləndirilməsi ilə bağlı olaraq isə məhkəmələr nəzərə almalıdır ki, hüquqi dövlətin ümumi prinsiplərinə görə inzibati orqanların rəsmi sənədləri (aktları, qərarları və s.) və məlumatları qanunauyğunluq prezumpsiyasından yararlanır. Yəni, əksi müəyyən edilənədək həmin sənədlər və müvafiq məlumatlar hüquqi müstəvidə nəticə doğurmağa davam edirlər. Eyni zamanda, dövlət orqanları həmin məlumatların dəqiqliyinə və mötəbərliyinə görə məsuliyyət daşıyırlar. Bu yanaşma, həm inzibati orqanların fəaliyyətinə etimadın təmin edilməsi, dövlət idarəçiliyinin sabitliyi və effektivliyinin qorunması, həm də işlərin daha qısa müddətdə, əlavə xərclərsiz və qanunvericiliyin tələblərinə uyğun şəkildə həllinə xidmət edir.

11. Bununla yanaşı, DƏDKR tərəfindən verilmiş rəylər mütləq sübut xarakteri daşımır, başqa sözlə, işdəki digər sübutlar və faktlara əsasən nəticələrinin mötəbərliyi mübahisələndirilə bilər. Belə ki, DƏDKR tərəfindən təqdim edilmiş “rəy” yazılı sübutlardan biridir və məhkəmə tərəfindən işin halları ilə bağlı əlavə qiymətləndirmənin aparılması zərurəti yarana bilər. Məhz bu hallarda məhkəmələr ekspertiza təyin etməklə işin hallarını araşdıra bilərlər. Bu halda, torpaqlarla bağlı rəyin verilməsi yalnız işdə marağı olmayan, xüsusi biliyə malik və qanunla rəy verilməsinə səlahiyyəti olan ekspertlərə həvalə edilməli, ekspertizanın keçirilməsi və ekspert qarşısında qoyulmuş sualların tam və obyektiv olaraq cavablandırılması üçün zəruri olan bütün məlumatlar məhkəmə tərəfindən ekspertizanı keçirən quruma təqdim edilməlidir *(ekspertizanı həyata keçirən qurumun özünün çıxış imkanının olduğu və ya birbaşa əldə edə biləcəyi, yaxud iş materiallarında olan məlumatlar istisna olmaqla)*. Xüsusi olaraq qeyd edilməlidir ki, ekspertizanın aparılması üçün ekspertin (və ya ekspertlərin) elektron kadastr uçotu informasiya sistemindəki məlumatlara çıxışı olmadığı halda, zəruri məlumatlar hazırkı təcrübənin əksinə olaraq, məhkəmə tərəfindən DƏDKR-dən əldə edilməklə ekspertizaya təqdim edilməlidir.

12. Həmçinin nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin laboratoriyalarının komplektləşdirilməsi çərçivəsində görülən işlər nəticəsində iş materiallarında torpağa dair aşağıda qeyd olunan zəruri sənədlər mövcud olduğu halda, Mərkəzin ekspertləri tərəfindən sərbəst formada GPS naviqasiya sistemi

vasitəsilə ölçü işləri aparılmaqla bir qisim işlər üzrə rəylər verilə bilər: 1) mübahisəli torpaq sahəsinin plan və ölçü sənədləri; 2) mübahisəli torpaq sahəsinə dair texniki pasport və çıxarış; 3) mübahisəli torpaq sahəsinin koordinatlarını və ölçülərini əks etdirən "Ayrıc Aktı"; 4) mübahisəli torpaq sahəsinin koordinatlarını, miqyasını və ölçülərini özündə əks etdirən digər sənədlər.

13. Torpaq sahəsinə dair sözügedən hüquq müəyyənedici sənədlər iş materiallarında olduğu halda mübahisəli torpaq sahəsinin faktiki koordinatlarının, kateqoriyasının (kənd təsərrüfatı, sənaye-nəqliyyat, ehtiyat fondu və s.), mülkiyyət növünün (xüsusi, bələdiyyə, dövlət), sənəd və istifadə üzrə üst-üstə düşüb-düşməməsinin, tikilinin tədqiq olunan torpaq sahəsinin üzərində yerləşib-yerləşməməsinin, digər şəxslər tərəfindən istifadə olunub-olunmamasının (bu zaman tədqiqat bilavasitə subyektə görə deyil, faktiki istifadədə olan torpaq sahəsinə görə aparılır) müəyyən edilməsi ilə bağlı suallar üzrə ekspertlər tərəfindən sərbəst tədqiqatların aparılması mümkündür.

*İnzibati işlərə baxılması zamanı nəzərə alınmalı olan hallar*

14. İnzibati məhkəmə icraatı qaydasında işə baxan məhkəmələrə tövsiyə edilir ki, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 1.2-ci maddəsinə istinadən işlərə baxılması zamanı icmal məktubun 9-13-cü bəndlərində qeyd olunan qaydada davranılması prinsip etibarı ilə mümkündür.

15. Lakin burada DƏDKR-in tərəf olduğu işlərdə həmin orqanın öz dəlillərinin (məsələn, inzibati işlərdə inzibati orqanının imtinasının və ya iddia tələbinə etirazının dəlilləri) əsası kimi təqdim etdiyi sübutlarla, MPM-in 60-cı maddəsindən irəli gələrək əldə edilən rəyi fərqləndirmək lazımdır. Şübhəsiz ki, DƏDKR-in tərəf olduğu işlərdə inzibati orqanın öz dəlillərinin əsası kimi təqdim etdiyi sübutlar da sübutun bir növüdür və qanunauyğunluq prezumpsiyasına tabedir. Odur ki, mötəbərliyi müəyyən edildiyi hallarda həmin məlumatlara istinadən də məhkəmə tərəfindən qərarın qəbul edilməsi yol veriləndir.

16. Lakin, DƏDKR-in iş üzrə cavabdeh olduğu işlərdə onun tərəfindən verilmiş rəy qərəzliliyə (hər hansı dövlət orqanının, idarənin və ya məhkəmə orqanının strukturundan, təşkilati asılılığından və ya maraq əlaqəsindən irəli gələn obyektiv tərəfkeşlik (qərəz)) dair müəyyən şübhələr yarada bilər.

17. Bu kimi hallarda təqdim edilən məlumatların, rəylərin yuxarıda qeyd edildiyi kimi digər mötəbər sübutlara və faktlara əsasən həqiqiliyi mübahisələndirilirsə, habelə qərəzliliyə dair əsaslı şübhələr varsa, məhkəmə ekspertiza təyin etməklə işin hallarını araşdırmalıdır.

*İcraatda olan işlərə baxılması zamanı nəzərə alınmalı olan hallar*

18. Məhkəmələrə tövsiyə olunur ki, hazırda icraatda olan işlərə münasibətdə DƏDKR-dən daxil olan rəylər əsasında qərarın qəbul edilməsinin mümkünlüyünü nəzərdən keçirsinlər. Təqdim olunan rəyin mötəbərliyinə şübhə yarandıqda və ya digər səbəblərə görə ekspertiza keçirilməsi zərurəti yaranarsa, o halda işin hallarına görə əldə edilən mütəxəssis rəyi, eləcə də ekspertizanın keçirilməsi üçün tələb olunan digər zəruri məlumatlar məhkəmə tərəfindən DƏDKR-dən əldə edilməklə müvafiq ekspertiza rəyinin alınması üçün ekspertiza qurumuna göndərilə bilər.

19. Bundan əlavə, MPM-in 101.3-cü maddəsinə əsasən ekspert rəyin verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə, ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə məhkəməyə vəsatət göndərir. Təcrübədə torpaq işlərinin təhlili göstərir ki, ekspertizanı həyata keçirən qurumun iş yükü, ekspert qarşısında

qoyulmuş sualların sayı və araşdırmanın xarakterindən asılı olaraq, bəzən əlavə tədqiqat materiallarının təqdim edilməsi ilə bağlı vəsatətlərin prosessual müddətlər daxilində verilməsini təmin etmək mümkün olmur. Bu halda məhkəmələrə tövsiyə edilir ki, belə gecikmələrlə təqdim edilən vəsatətləri tələb olunan əlavə tədqiqat materiallarının işin obyektiv və tam həlli üçün zəruriliyini nəzərə almaqla qiymətləndirsinlər.

*Özəl məhkəmə ekspertləri tərəfindən verilən rəylər barədə*

20. “Məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 23-cü maddəsinin 1-ci hissəsinə görə məhkəmə ekspertlərinin fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının məhkəmə ekspertizası idarələrində, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında, özəl hüquqi şəxslərdə, habelə özəl məhkəmə eksperti tərəfindən ayrıca şəkildə təşkil edilə bilər.

21. “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanunun tətbiqi və həmin Qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanı, eləcə də bu Fərmanın icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 dekabr tarixli 843s nömrəli Sərəncamına əsasən bir sıra müvafiq normativ-hüquqi sənədlər qəbul edilmişdir.

22. Lakin, məhkəmə ekspertizası sahəsinin təkmilləşdirilməsi məqsədilə özəl ekspertiza fəaliyyətinin hüquqi tənzimlənməsi ilə bağlı məsələlərin baxılması prosesi hələ də davam etdiyindən özəl məhkəmə ekspertlərinin fəaliyyətlərinin hüquqi əsası olan müvafiq şəhadətnamələrin verilməsi prosesinin başlanılmaması nəzərə alınmalıdır.

**Azərbaycan Respublikasının Ali Məhkəməsi**